# Qəbələlilər işıqlı gələcəyə səs verirlər

**Dünən 116 saylı Qəbələ seçki dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Fəttah Heydərov rayonun mədəniyyət və incəsənət işçiləri, eyni zamanda Çuxur Qəbələ kəndinin seçiciləri ilə görüşdü. Hər iki görüşü YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayonu üzrə səlahiyyətli nümayəndəsi Abil Ağasəfov açaraq deputatlığa namizəd Fəttah Heydərovun həyat və fəaliyyəti haqqında seçicilərə geniş məlumat verdi.**





Görüşdə deputatlığa namizədin vəkilləri Qüdrət Səmədov, Telman Abduxalıqov və Aslan Cəlilov Fəttah Heydərovun ötən 5 il ərzində olan deputatlığı dövründə rayonda gördüyü işlərdən ətraflı danışdılar.

Görüşdə çıxış edən mədəniyyət işçilərindən Çimnaz



Mürzəfərova, Bəhruz Şərifov, Ləman Əzəmmədova, Zahir Aslanov, Çuxur Qəbələ kəndinin seçicilərindən Namizəd Cavadov, Gülsurə Məmmədova və Əliyusib Yusibov Fəttah Heydərovun rayon əhalisinə göstərdiyi qayğıdan danışdılar, onun Respublika Ağsaqqallar Şurasının sədri kimi xeyriyyəçi bir insan olduğunu bildirdilər. Bütün bu görülən işlərə görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıq etdilər. Seçicilərin hər biri çıxışlarında qarşıdan gələn 1 noyabr tarixində layiqli namizəd Fəttah Heydərova səs verəcəklərini bildirdilər.

Deputatlığa namizəd Fəttah Heydərov seçicilərini salamlayaraq onun görüşünə gəldikləri üçün təşəkkürünü bildirdi. O, Qəbələ rayonunda gedən quruculuq-abadlıq işlərindən danışaraq bildirib ki, əldə edilən hər bir nailiyyətin əsasında ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamı dayanır.

Əsası Ümummilli Lider tərəfindən qoyulan, bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kurs hər zaman respublikamızda vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edir. Fəttah Heydərov dünyada iqtisadi böhranın getdiyi bir zamanda ölkəmizdə iqtisadi stabilliyin olduğunu qeyd etdi və respublikamızda inkişafın dinamik xarakter daşıdığını bildirdi. Eyni zamanda deputatlığa namizəd Fəttah Heydərov yaxın illərdə Qəbələ rayonunda nəzərdə tutulan genişmiqyaslı işlərdən və planlardan danışdı.

Tədbirin sonunda deputatlığa namizəd Fəttah Heydərov seçicilərin təkliflərini dinlədi.









### Deputatlığa namizəd Fəttah Heydərov gənclərlə görüşdü

Qəbələ rayonundan Azərbaycan Respublikası Milli Məclisinin üzvlüyünə namizəd Fəttah Heydərov Qəbələ Otelçilik və Turizm üzrə Peşə Məktəbinin akt zalında rayonun gənc seçiciləri ilə görüş keçirdi. Görüşü deputatın səlahiyyətli nümayəndəsi Abil Ağasəfov açdı. O, deputatlığa namizəd Fəttah Heydərovun tərcümeyi-halı və iş fəaliyyəti barədə gənc seçicilərə ətraflı məlumat verdi.

Tədbirdə namizədin vəkilləri Arifə Bayramova və Elçin Tağıyev çıxış etdilər. Gənclərlə keçirilən görüşdə YAP Qəbələ rayon təşkilatı Gənclər Birliyinin sədri Namiq Ağayev çıxış edərək bildirdi ki, bu gün YAP cəmiyyət tərəfindən quruculuq, sabitlik, inkişaf və tərəqqi partiyası kimi qəbul edilir. Yeni Azərbaycan Partiyası öz məqsəd və məramına uyğun olaraq gənclərin hüquqi dövlət və sivil vətəndaş cəmiyyətinin quruculuq proseslərində yaxından iştirakına gözəl şərait yaradıb. Vətəni, milləti üçün fəaliyyət göstərmək istəyində olan fəal gənclər Yeni Azərbaycan Partiyası tərəfindən daim himayə olunur. Gənclərimiz partiya xətti ilə mütəmadi olaraq xarici ölkələrdə səfərlərdə olur, müxtəlif beynəlxalq təşkilatların tədbirlərinə qatılaraq ölkəmizi təmsil edirlər. Bizim rayonumuzdan 4 dəfə deputat seçilmiş Fəttah müəllimin zəhməti mədəniyyət, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə aydın görülür. Biz gənclər rayonumuzda gedən inkişafı daha çox hiss edirik. Əlbəttə, bu inkişaf ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir.

Görüşdə çıxış edən gənc seçicilərdən Gülnar Eyvazlı, Səbinə Cahangirli və Anar Məhərrəmov respublikamızda, eləcə də Qəbələ rayonunda gənclərə göstərilən qayğıdan, onların təhsil almaları üçün yaradılan şəraitdən geniş danışdılar. Çıxış edən gənclər 1 noyabr tarixində keçiriləcək parlament seçkilərində fəal iştirak edəcəklərini və Fəttah Heydərova səs verəcəklərini bildirdilər.

Görüşdə çıxış edən deputatlığa namizəd onunla görüşə gələn bütün gəncləri ürəkdən salamladı və gənclər arasında özünü daha da gümrah hiss etdiyini bildirdi. Qeyd etdi ki, Azərbaycan gəncləri artıq cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevriliblər. Demokratik prinsiplərin mənimsənilməsi və inkişafı prosesində onlar yaxından iştirak edirlər. Bildirdi ki, cənab Prezident "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramını təsdiq edib. Dövlət Proqramında gəncləri narahat edən bütün məsələlərin öz həllini tapmaq üçün icra mexanizmləri işlənib hazırlanıb. Hazırda həmin proqram uğurla icra edilməkdədir. Bütün bu yaradılan şərait gənclərimizin cəmiyyətə layiqli vətəndaş kimi yetişdirilməsində böyük rol oynayır.

Tədbirin sonunda deputatlığa namizəd Fəttah Heydərov gənc seçicilərin qaldırdıqları məsələlər barədə fikir və mülahizələrini bildirdi, onların suallarına cavab verdi.

**Nüsrət Məmmədov,**
***"İki sahil"***